

*"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".*
*Heydər Əliyev*


*Heydər Əliyev - xalq birliyi əbədidir!*

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır İctimai-siyasi qəzet № 9 (1060) 9 sentyabr 2019-cu il Qiymıəti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı


## Prezident İlham Əliyev Rusiya Təhlükəsizlik Şurasının katibinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Prezident Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, təhlükəsizlik və bütün digər sahələrdə uğurla inkişaf etdiyi qeyd edildi, iki ölkənin dövlət başçıları arasında səmimi münasibətlərin əlaqələrimizin inkişafındakı rolu vurğulandı, Nikolay Patruşevin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı ekstremizmə, terrorçuluğa qarşı mübarizə ilə bağlı qanunvericilik və əməkdaşlıq məsələlərinin müzakirə ediləcəyi bildirildi və bu səfərin münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.



## İlham Əliyev türkdilli dövlətlərin xüsusi xidmət orqanlarının rəhbərlərini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da türkdilli dövlətlərin xüsusi xidmət orqanlarının rəhbərlərini qəbul edib.

Dövlət başçısı Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının Bakıda keçirilməsindən məmnunluğunu ifadə etdi. İclasın ikitərəfli və çoxtərəfli əməkdaşlığımızla bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını deyən Prezident İlham Əliyev ölkələrimiz arasında etimada əsaslanan çox sıx qardaşlıq münasibətlərinin mövcud olduğunu dedi. Dövlətimizin başçısı ölkələrimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini qeyd edərək, bu təmasların təhlükəsizliyin və regional sabitliyin təmin olunmasındakı rolunu vurğuladı. Azərbaycanın regional əməkdaşlıq proseslərində fəal iştirak etdiyini deyən Prezident İlham Əliyev əlaqələrimizin möhkəmləndirilməsi üçün səylərin bundan sonra da davam etdiriləcəyini bildirdi. Dövlətimizin başçısı iclasda müzakirə edilən məsələlərin ölkələrimizin təhlükəsizliyinin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Görüşdə çıxış edən qonaqlar Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını bildirdilər və bu tədbirin ölkələrimizin müvafiq qurumları arasında əlaqələrin və sıx əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyini vurğuladılar.

## Xalq şairi Hüseyn Arifin ev muzeyinə ziyarət edildi





Şairlər, yazıçılar diyarı olan doğma Ağstafamızda həmişə qələm sahiblərinə diqqət və qayğı göstərilmiş və bu ənənə bu gün də davam etməkdədir. Bir neçə il bundan əvvəl dahi şairimiz Səməd Vurğunun adını daşıyan mədəniyyət və istirahət parkında yazıçılar evinin istifadəyə verilməsi bunu bir daha təsdiqləyir.

El arasında böyük hörmət qazanmış Hüseyn Arif həmişə ağstafalıların qəlbində yaşamış və yaşayacaqdır. 1993-cü ildə Nazirlər Kabinetinin müvafiq əmri ilə Ağstafa şəhərində Hüseyn Arifin ev muzeyinin açılması dahi şairə olan böyük hörmət və məhəbbətin tərənnümüdür. Rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev bu günlər xalq şairi Hüseyn Arifin ev muzeyinə ziyarət etmiş və oradakı şəraitlə tanış olmuşdur. N. Quliyev muzeylə tanışlıqdan sonra buradakı şəraitin daha da yaxşılaşdırılması üçün Ağstafa Regional Mədəniyyət İdarəsinin rəhbərliyinə müvafiq tapşırıqlar vermişdir.

# Təkliflər nəzərə alındı

Rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev yaşayış məntəqələrində ictimaiyyətlə növbəti səyyar görüşü Xılxına kəndində keçirdi.

Görüşü giriş sözü ilə açan icra başçısı ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, sürətli sosial-iqtisadi inkişafdan hərtərəfli söz açdı. N. Quliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq tapşırıqları ilə Ağstafada görülən geniş abadlıq, quruculuq, əsaslı yenidənqurma işlərindən, həyata keçirilən irimiqyaslı sosial struktur layihələrdən ətraflı məlumat verdi.



Görüşdə Xılxına kənd icra nümayəndəsi Bakir Seyidov son vaxtlar kənddə görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat verdi. O, qeyd etdi ki, Xılxına kəndi rayon mərkəzindən 26 km aralıda yerləşir. 1540 nəfər əhalisi olan kənddə 167 təsərrüfat vardır. Kənddə 1 tam orta məktəb, kitabxana, tibb məntəqəsi, klub, körpələr evi-uşaq bağçası fəaliyyət göstərir. Son vaxtlar kənddə 3,7 km kənddaxili yollar təmir edilmiş, 1 ədəd subartezian quyusu istismara verilmiş, ərazidə yerləşən 5 ədəd subartezian quyusu təmir olunmuş, yararsız elektrik dayaqları dəyişdirilmiş, 1,8 km uzunluğunda keyfiyyətsiz elektrik naqilləri yenisi ilə əvəz olunmuşdur.

Görüşdə kənd sakinləri çıxış edərək öz arzu və istəklərini bildirdilər. Kənd sakini Rəfail İsmayılov çıxış edərək kəndin elektrik təsərrüfatının yenidən qurulması istiqamətində işlərin görülməsini, Qabil Mehdiyev kənddə subartezian quyusuna məxsus elektrik transformatorunda yaranan qusurun aradan qaldırılmasını xahiş etdi. Uzun müddət kənddə rəhbər vəzifədə işləmiş, Yeni Azərbaycan Partiyasının üzvü Səlim Novruzov çıxış edərək son vaxtlar rayonda, eləcə də kənddə aparılan yenidənqurma işlərinə görə ölkə başçısı cənab İlham Əliyevə dərin minnətdarlığını bildirdi. O, öz çıxışında qeyd etdi ki, elə bir yaşayış məntəqəsi olmaz ki, orada müəyən nöqsan və çatışmazlıq olmasın. Belə nöqsan və problemlər bizim kənddə də vardır. O, böyük əminliklə bildirdi ki, rayon rəhbərliyi bu nöqsan və çatışmazlıqları nəzərə alacaq və göstərilən problemlərin həll olunması üçün onlara yaxından köməklik göstərəcəkdir.

Görüşün sonunda Rayon icra hakimiyyətinin başçısı N. Quliyev çıxış edərək təkliflərin nəzərə alınacağını bildirdi, problemlərin həll olunması üçün müvafiq idarə, müəssisə və təşkilat rəhbərlərinə tapşırıqlar verdi.

# İctimaiyyətlə keçirilən görüşlər öz bəhrəsini verir



Rayon icra hakimiyyətinin başçısı Nizməddin Quliyev ictimaiyyətlə növbəti səyyar görüşü Köçəsgər kəndində keçirmişdir. Kənd 1 saylı tam orta məktəbində keçirilən görüş olduqca səmərəli və faydalı olmuşdur. Tədbiri giriş sözü ilə açan N. Quliyev son dövrlər Azərbaycanda aparılan böyük quruculuq, abadlıq işlərindən danışmış və bu dinmaik inkişafın bu gün də uğurla davam etdirildiyini bildirmişdir. Rayon icra hakimiyyətinin başçısı ölkə başçısının tapşırığına əsasən Ağstafada aparılan quruculuq və abadlıq işlərindən də ətraflı danışmış və qeyd etmişdir ki, bu cür məqsədyönlü iş Köçəsgər kəndində də həyata keçirilir.

Görüşdə kənd icra nümayəndəsi yığıncaq iştirakçılarına cari ilin ötən dövrlərində kənddə görülmüş işlər barədə məlumat vermiş və qeyd etmişdir ki, kənddə görülən işlərlə yanaşı bəzi problemlər də vardır.

Görüşdə çıxış edən kənd sakinləri onları narahat edən problemləri qeyd etmiş və kəndin ərazisindən keçən Acıdərədə yaranan uçqunun qarşısının alınması, əvvəllər suvarma kanalında yerləşən iki ədəd suvarma nasos stansiyasının bərpa olunması, kəndin keçmiş Ferma adlanan ərazisində olan bir ədəd subartezian quyusunun təmir edilərək istismara verilməsi kimi məsələləri rayon rəhbərliyinin diqqətinə çatdırmışlar. Ümumilikdə görüşdə irəli sürülən təklif və problemlərlə əlaqədar idarə, müəssisə rəhbərlərinin məlumatları dinlənilmiş və qaldırılan problemlərin həll edilməsi üçün onlara müvafiq tapşırıqlar verilmişdir.



*İ.Əliyev*

# Məzunlarla görüş keçirildi



Rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev bu günlər cari tədris ilində ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayaraq tələbə adını qazanan gənclərlə görüş keçirdi. Tədbiri giriş sözü ilə açan icra başçısı öncə tələbə adını qazanan məzunları və onların valideynlərini təbrik etdi, belə yüksək səviyyəli məzunların yetişdirilməsində böyük əməyi olan müəllimlərə dərin minnətdarlığını bildirdi. İcra başçısı qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin son illərdəki fəaliyyəti onun Ulu öndərimizin əsasını qoyduğu mütərəqqi elm və təhsil ənənələrini və yeni dövrün tələblərinə uyğun zənginləşdiyini göstərdi. Bu gün milli təhsilimizin inkişafı məsələsi öz məzmununu dəyişərək artıq həm də Azərbaycanın gələcək inkişaf modelinin əsasını formalaşdıran başlıca amil kimi gündəmə gətirmişdi. Məhz Prezident İlham Əliyevin qayğısı nəticəsində orta məktəblərdə təhsilin səviyyəsi xeyli yüksəlmiş, müəllim və şagirdlər üçün maddi-texniki bazanın gücləndirilməsi istiqamətində bir sıra mühüm addımlar atılmışdır.




Görüşdə Rayon Təhsil Şöbəsinin müdiri Kamran Abbasov çıxış etdi. O, qeyd etdi ki, rayon üzrə 642 nəfər məzundan 428 nəfəri ali təhsil məüssisələrinə sənəd vermiş, onlardan 274 nəfəri tələbə adını qazanmışdır. Tələbə adını qazanan gənclərdən 52 nəfəri 500-dən yuxarı, 12 nəfəri 600-dən yuxarı bal toplamışdır.

Tədbirdə Texniki Humanitar Təmayüllü liseyin müəllimi Gülnar Qəhrəmanova, Azərbaycan Tibb Universitetinə 637 balla qəbul olmuş Nəzrin Həsənova, valideyn Ramin Həsənov çıxış edərək müəllimlər, tələbələr və valideynlər adından ölkə təhsilinə göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirdilər.



Rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev tədbirdə 500-dən çox bal toplayan 52 nəfər tələbə adını qazanan gənclərə qiymətli hədiyyələr, 600-dən çox bal toplayan 12 nəfərə isə 200 manat məbləğində pul mükafatı təqdim etdi. Daha sonra tədbirdə Qazax Sement MMC tərəfindən Ağstafa rayonundan 620-dən çox bal toplayan tələbəyə aylıq 100 manatlıq təqaüd kartları təqdim edildi. Müəssisəni təmsil edən idarə heyətinin üzvü Hikmət Əliyev məzunları təbrik etdi və onlara daha böyük uğurlar arzuladı.

Tədbir yerli mədəniyyət və incəsənət nümayəndələrinin iştirakı ilə geniş konsert proqramı ilə davam etdi.



# Onlar bizim fəxrimizdir

Ötən dərs ili rayonumuzun ümumtəhsil məktəbləri üçün uğurlu və yaddaqalan illərdən biri oldu. Orta məktəbi bitirən məzunlar ali və orta ixtisas məktəblərinə qəbul olmaq üçün öz güclərini sınaqdan keçirdilər və sevindirici nəticələr əldə etdilər. Onların bir çoxları qəbul imtahanı zamanı ən yüksək bal toplayaraq tələbə adına layiq görüldülər.

Ən sevindirici hal o oldu ki, məzunların 12 nəfəri 600-dən çox bal topladı. Rayonumuzun fəxri hesab etdiyimiz həmin məzunları təbrik edir və onları oxucularımıza təqdim edirik.

1. Həsənova Nəzrin Ramin qızı - 637 bal (şəhər 2 saylı orta məktəbi)
2. İmamquliyev Renat Arif oğlu - 607 bal (şəhər 2 saylı orta məktəbi)
3. Mürşüdov Fərid Elbrus oğlu - 623 bal (Texniki Humanitar təmayüllü lisey)
4. Əsgərli Zülfiyyə Xalid qızı - 619 bal(Texniki Humanitar Təmayüllü lisey)
5. İsayeva Aidə Sahib qızı - 631 bal (Böyük-Kəsik kənd orta məktəbi)
6. Gülümcanov Əhəd Yaşar oğlu - 630 bal (Yenigün kənd orta məktəbi)
7. Məmmədova Mehri Şəmməd qızı - 627 bal (Sadıxlı kənd orta məktəbi)
8. İsmayılova Firuzə Fazil qızı - 627 bal (Dağkəsəmən kənd 1 saylı orta məktəbi)
9. İbrahimova İlahə Hüseyn qızı - 616 bal (Dağkəsəmən kənd 1 saylı orta məktəbi)
10. İsmayılov İlkin Elşən oğlu - 616 bal (şəhər 3 saylı orta məktəbi)
11. Abdullazadə Sevil Abdulla qızı - 608 bal (Dağkəsəmən kənd 2 saylı orta məktəbi)
12. Cürənov Əmiraslan Elnur oğlu - 600 bal (şəhər 1 saylı orta məktəbi)

Biz əminik ki, respublikanın ən nüfuzlu təhsil müəssisələrinə qəbul olan bu məzunlar institut illərində də özlərini doğruldacaq, rayonumuzun təhsil işçilərinin adını yüksəklərə qaldıracaqlar.

# Payızlıq şum qaldırılır

2019-cu təsərrüfat ilinin başa çatmasına az vaxt qalır. Yola salmağa hazırlaşdığımız bu il əvvəlki illərə nisbətən kənd əməkçiləri üçün bir qədər əlverişli olmadı. Havaların quraq keçməsi əkin sahələrinin suvarılmasında bəzi problemlər yaratdı. Lakin bütün bunlara baxmayaraq kənd əməkçiləri bütün çətinlikləri aradan qaldırmış, əkin sahələrindən nəzərdə tutulduğundan xeyli çox məhsul əldə etmişlər.

Artıq bir neçə gündür ki, kəndlərdə gələn ilin bol məhsulunun təməlinin qoyulmasına başlanılmışdır. Biçilmiş arpa, buğda sahələrində şum qaldırılmasına start verilmiş və ötən günlərdə xeyli iş görülmüşdür.

Bu il rayonun kəndlərində 10 min hektar sahədə payızlıq şum qaldırılması nəzərdə tutulmuşdur. Artıq rayonun Köçvəlili, Qarayazı, Saloğlu, Böyük-Kəsik, Poylu kəndlərində payızlıq şum qaldıdılması yekunlaşmaq üzrədir. Ötən dövrdə 7 min hektar sahədə şum qaldırılmış və bu iş uğurla davam etdirilir.

# Fərid Mürşüdova gümüş medal verildi




Rayonun nümunəvi təhsil müəssisələrindən biri olan Texniki Humanitar liseydə oxuyan şagirdlər öz bilik və bacarıqları ilə digər məktəblərdə təhsil alan şagirdlərdən xüsusilə fərqlənirlər. Bu onu göstərir ki, bu təhsil müəssisəsində çalışan pedaqoji işçilər daim öz üzərlərində çalışır, gənc nəslin yüksək səviyyədə təhsil almaları üçün bütün qüvvə və bacarıqlarından istifadə edirlər.

Liseyin 11-ci sinfini bitirmiş Mürşüdov Fərid Elbrus oğlunun bilik yarışlarında əldə etdiyi nailiyyətlər bunu bir daha təsdiqləyir. Respublika fənn olimpiadasının final mərhələsində iştirak edən Fərid Mürşüdov coğrafiya fənni üzrə 3-cü yerə çıxmış, bürünc medala layiq görülmüşdür. F. Mürşüdovun bilik və bacarığı Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən də yüksək qiymətlənidirilmişdir. F. Mürşüdov ümumi təhsili xüsusi nailiyyətlərlə başa vurduğuna görə o, Təhsil Nazirinin 30 iyul 2019-cu il tarixli əmri ilə gümüş medalla təltif olunmuşdur.

Təbrik edirik!




# Anaların sevimlisi



Həyatda elə bir insan olmaz ki, canı ağrımasın, xəstələnməsin və bununla əlaqədar insanların sağlamlığı keşiyində duran həkimlərə müraciət etməsin. Belə insanlardan biri də mənəm. Halhazırda 3 yaşı təzəcə tamam olan kiçik nəvəm Allahverdi doğulan gündən xəstədir və bu gün də demək olar ki, sağlamlığında müəyyən qüsurlar vardır. Onu müalicə etmək üçün çox həkimlərə müraciət etmiş, onların qəbulunda olmuş, onlardan imdad diləmişəm. Belə həkimlərdən biri də Ağstafa Mərkəzi Xəstəxanasının Uşaq Xəstəlikləri Şöbəsinin həkimi Sarıyeva Zülfiyyə Sücayət qızıdır. Zülfiyyə Sarıyeva Dağkəsəməndə anadan olmuş, 1 saylı kənd orta məktəbini bitirmiş və 1994-cü ildə Azərbaycan Tibb Universitetinin pediatriya fakültəsinə daxil olmuşdir. Həkim olmaq təkcə onun yox, həm də atası Sücayət kişinin arzusu idi. Atalar yaxşı deyiblər, niyyətin hara, mənzilin də ora. Zülfiyyə də, atası Sücayət kişi də öz arzularına çatdılar.

2001-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirən gənc həkim təyinatla Ağstafaya göndərildi və uşaq xəstəxanasında əmək fəaliyyətinə başladı. Həmin vaxtdan nə az, nə də çox, düz 18 il vaxt keçir. Zülfiyyə bu gün də həmin kollektivdə işləyir. Bu illər ərzində Zülfiyyənin gözləri çox şeylər görmüş, ən ağır xəstə olan uşaqları, gözləri yaşla dolu olan anaları qəbul etmişdir. Özünə inanan, biliyinə, bacarığına güvənən Zülfiyyə həkim həmişə onlara böyük ümid vermiş, uşaqları müalicə etmək üçün əlindən gələni etmişdir. Elə buna görə də onu tanıyanlar Zülfiyyə xanımı anaların sevimlisi adlandırırlar.

Z. Sarıyeva ilə xəstəxanada iş başında görüşdük. Xeyli söhbət etdik. O, ilk öncə bu peşəyə yiyələnməsində orta məktəbdə ona dərs deyən müəllimlərinə dərin minnətdarlığını bildirdi. Biologiya müəllimi Aidə xanımın, kimya müəllimi Dürdanə xanımın adlarını iftixarla çəkdi. Daha sonra isə işlədiyi xəstəxanadakı həkimlərdən, tibb bacılarından ürəkdolusu danışdı. Xəstəxananın baş həkimi İradə Batıyevanın isə əvəzsiz rəhbər olduğunu bildirdi. Qeyd etdi ki, İradə xanım bizlərin həm anası, həm bacısı, həm də rəhbəridir. O, təkcə işimizlə deyil, həm də ailəmizdəki vəziyyətlə maraqlanır, bizə diqqət və qayğı göstərir.

Zülfiyyə Sarıyeva bacarıqlı, hörmətli həkim olmaqla yanaşı, həm də gözəl anadır. Özünün dediyinə görə onun 8-ci sinifdə oxuyan oğlu Nihat da həkim olmaq istəyir. Olsun, daha yaxşı. Elə başa düşürük ki, onun övladı Nihat anasının yolunu uğurla davam etdirəcək, insanların sağlamlığı keşiyində möhkəm dayanacaqdır.

Mən fürsətdən istifadə edib, Zülfiyyə xanıma, İradə xanıma və eləcə də xəstəxanada çalışan bütün həkimlərə, tibb işçilərinə dərin minnətdarlığımı bildirirəm.

*İbrahim Əliyev*

# Cari dərs ilinə hazırıq

***Əməkdaşımız Rayon təhsil şöbəsində olmuş, cari dərs ilinə hazırlığın vəziyyəti ilə maraqlanmışdır. Müxbirimizlə həmsöhbət olan metodkabinetin müdiri İmran Nəsibov mövzuya aydınlıq gətirmişdir:***

- Bəli, təhsildə müvəffəqiyyətin rəhni ona yaxşı hazırlıqdan ibarətdir,-deyə o fikrini bildirdi. Cari dərs ilinə hazırlığı demək olar ki, başa çatdırmışıq. Ancaq əsas mətləbə keçməzdən əvvəl bayaqkı söhbətimə qayıtmaq istəyirəm. Bayaq vurğuladığım kimi, təhsildə yaxşı nəticəyə nail olmaq üçün yaxşı hazırlıqla başlamalısan. Biz bu variantın nəticəsindən razıyıq. Məsələn, ötən dərs ilinin məzunlarından 428 nəfər ali məktəblərə sənəd vermişdir. Bu, məzunların 66,6 faizi deməkdir. Ali məktəblərə sənəd verənlərdən 274 nəfəri tələbə adını qazanmışdır. Qəbul olunanlardan 12 nəfəri 600-dən, 52 nəfəri isə 500-dən çox bal toplamışdır.

Bu dediklərim məhz dərs ilinə yaxşı və mükəmməl hazırlığın nəticəsidir. Burada təşkilati işlə yanaşı pedaqoji kollektivin gərgin əməyi də qeyd edilməlidir. Rayon üzrə ötən dərs ilində 643 sinif komplektində-11120 nəfər şagird təhsil almışdır. Önların təlim-tərbiyəsilə 1468 nəfər müəllim məşğul olmuşdur.

Cari dərs ilinə hazırlıq işlərinin vəziyyətinə gəlincə onu deyə bilərəm ki, burada ən əsas məsələ pedaq oji və şagird kollektivləri üçün yaradılmış iş şəraiti də müsbət amildir. Ötən dərs ilinin yaxşı nəticəsinə də bu formada nail olmuşuq. Cari dərs ilinə mütəşəkkil qaydada başlayacağıq. Əsas məsələ tədris ocaqlarının dərs ilinə keyfiyyətli hazırlanması məsələsinə diqqət yetirmək olmuşdur. Rayonda qəzalı vəziyyətdə olan məktəblərin yenidən tikilməsi və təmir edilməsi ön plana salınmışdır. Muğanlı kənd tam orta məktəbində 624 şagird təhsil alır. Əsaslı təmirə böyük ehtiyac var idi. Əlaqədar təşkilatlar bunu nəzərə alıb məktəbi keyfiyyətlə əsaslı təmirdən çıxarmağı öhdələrinə götürmüşlər. Orada təmir işləri davam edir. Böyük-Kəsik kənd tam orta məktəbi üçün 264 şagird yerlik yeni məktəb binası inşa edilmişdir. Hər cür imkan və şəraitə malikdir. Yeni dərs ilində şagirdlər burada təhsilini davam etdirəcəklər.

Təhsil prosesində keyfiyyət göstəricisi başlıca amil hesab olunub. Biz də buna nail olmağa üstünlük veririk. Buna görə də H. Aslanov qəsəbəsində 20 şagird yerlik modul tipli məktəb quraşdırılmışdır. Yaradullu kənd ümumi orta məktəbi üçün isə 96 şagird yerlik modul tipli məktəb binasının quraşdırılmasına başlanılmışdır.

Bütün bunlarla yanaşı onu da vurğulayım ki, rayonumuzda kənd bələdiyyələri də təhsil ocaqlarının təmirinə dəstək olur, əməli işlərilə fəaliyyət göstərirlər. Məsələn, yerli bələdiyyələrin dəstəyi ilə Qarahəsənli kənd ümumi orta, Köçvəlili, Xılxına, Zəlimxan, Həsənsu, Qırlı, Köçəsgər kənd 2 saylı, Vurğun qəsəbə, Poylu qəsəbə tam orta məktəblərində cari təmir işləri başa çatdırılmışdır.

Beləliklə, məlumatımı onunla yekunlaşdırmaq istəyirəm ki, indiyə kimi gördüyümüz və başa çatdırdığımız işlərlə kifayətlənmirik. Dərs ili ərzində diqqətimiz tədris ocaqlarında işlərin davamlı yerinə yetirilməsinə yönələcəkdir.

*Qəhrəman Qurbanov*

# Subsidiyalar elektron qaydada veriləcək

Ölkə başçısı cənab İlham Əliyevin "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" fərmanına uyğun olaraq 2020-ci ildən tətbiq ediləcək yeni subsidiya əmsalları ilə əlaqədar mətbuat konfransı keçirilmişdir. Konfransda bununla əlaqədar açıqlamalar verildi, subsidiyaların ödənilməsi qaydaları barədə ətraflı söhbət aparıldı. Aqrar sahədə subsidiyaların verilməsində şəffaflığın və operativliyin təmin edilməsi, dövlət büdcəsindən qənaətlə istifadə olunması, bürokratik əngəllərin aradan qaldırılması üçün konkret mexanizm yaradılmışdır.

Elektron kənd təsərrüfatı sistemində qeydiyyatdan keçən, öz torpağı və əkəcəyi bitki haqqında məlumatları düzgün əks etdirən hər bir fermerə "Fermer kartı" veriləcək və həmin fermer il ərzində həmin kart vasitəsilə subsidiyaları elektron qaydada ala biləcəkdir. Karta köçürülən məbləğin 25 faizi nağdılaşdırıla, qalanı isə poçt terminalla, bankomatlar vasitəsilə hər bir texhizatçıya köçürülə bilər.

Qəbul edilən qərarda heyvandarlıq sahəsində verilən subsidiyalar da öz əksini tapır. Belə ki, süni mayalanma yolu ilə cins tərkibi dəyişmiş buzovlara görə verilən subsidiyalar eyni məbləğdə (100 manat) qalır. Arıçılıqda da əvvəlki kimi hər bir arı ailəsinə görə 10 manat subsidiyanın verilməsi nəzərdə tutulur.

Bütün bunları nəzərə alaraq, kənd təsərrüfatı ilə məşğul olan vətəndaşlara subsidiyaların hansı məbləğdə verilməsinə dair aşağıdakı məlumatı bildiririk:

| Bitki növləri | Əkin əmsalı | Əkin subsidiyası (hektara görə manatla) |
|---|---|---|
| Buğda | 1,0 | 200 |
| Günəbaxan | 1,0 | 200 |
| Şəkər çuğunduru | 1,4 | 280 |
| Kartof | 1,2 | 240 |
| Tərəvəz | 1,2 | 240 |
| Bostan bitkiləri | 1,1 | 220 |
| Digər bitkilər | 0,5 | 100 |
| Üzüm | | |
| Bağın salındığı ilk 4 il ərzində | 1,2 | 240 |
| 4 ildən sonrakı illər üzrə | 1,2 | 240 |

Göstərilən əmsallar üzrə subsidiyaların verilməsinə 2020-ci ildən başlanacaqdır. Gələn ildən subsidiyalar yalnız elektron kənd təsərrüfatı informasiya sistemi üzərindən veriləcəkdir. Əminik ki, kənd təsərrüfatı ilə məşğul olanlar bu məlumatlarla bəhrələnəcək və subsidiyaların verilməsində dövlət qayğısının tam şahidi olacaqlar. Əlavə məlumat almaq istəyənlər nə vaxt istəsələr bizə müraciət edə bilərlər.

***E. Musayev***
***Ağstafa DAİM direktor müavini***




# "Keşikçidağ" milli sərvətimizdir

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin dəstəyi ilə "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun da həm ölkə daxilində, həm də ölkə xaricində keçirilən beynəlxalq konfranslarda iştirakı təmin edilir. Qoruq əməkdaşları qoruğun ərazisində olan abidələrin tanıdılması, təbliğ edilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi məqsədilə müxtəlif mövzularda məqalələr yazaraq konfranslara göndərir. Qoruğun direktoru Musa Mursaquliyev dəfələrlə Türkiyədə keçirilən konfranslarda çıxış etmiş, "Keşikçidağ" qoruğu barədə konfrans iştirakçılarına məlumat vermişdir.

M.Mürsəquluyevin milli sərvətimiz olan "Keşikçidağ" barədə məruzəsi konfrans iştirakçıları tərəfindən maraqla qarşılanaraq konfransın gündəliyində nəşr olunub. Gələcəkdə konfransın təşkilatçısı olan İKSAD-ın ölkəmizdə də bu cür beynəlxalq konfranslar keçirməsi, həmçinin Azərbaycanın qərb bölgəsində beynəlxalq dərəcəli alim və arxeoloqların cəlb olunduğu yay məktəbinin təşkil olunması barədə müzakirələr aparılıb və fikirlər təşkilatçılar tərəfindən müsbət qarşılanıb.

# Meşələri yanğından qoruyun!

Bioloji cəhətdən öz inkiafında birbirinə qarşılıqlı təsir göstərən torpağın, suyun, ağac, kol, ot bitkilərinin, heyvanat aləminin, mikroorqanizmlərin vəhdəti hesab edilən meşə sahələri Azərbaycanın ən qiymətli milli, təbii sərvəti hesab olunur.

Meşələrdən bəhrələnməklə, onun nemətlərindən istifadə etməklə yanaşı təbiətin bu füsunkar nemətini qorumaq, onu gələcək nəsillərə ərməğan etmək hər bir vətəndaşın borcudur. Meşələrimizin yanğın təhlükəsizliyini təmin etmək üçün bir sıra zəruri tədbirlərin həyata keçirilməsi vacibdir.

Meşələrin yanğın təhlükəsizliyi daim diqqət mərkəzində olmalıdır. Bunun üçün birinci növbədə qeyd edilməlidir ki, Azərbaycan Respublikası meşələrində yanğın təhlükəsizliyinin təşkil olunmasında məsuliyyət Ekologiya və Təbii Sərvətlər Nazirliyinin meşələrdə yanğın təhlükəsizliyinə cavabeh olan şəxslər, o cümlədən meşə mühafizə mühəndisləri meşələrin yanğın təhlükəsizliyi qaydalarını bilməklə meşə sahələrində və zolaqlarında yanğına qarşı ciddi rejim təyin etməli və bu rejimə ciddi riayət olunmasını daim nəzarətdə saxlamalıdırlar. Meşə təsərrüfatında yanğın təhlükəsizliyinə məsul olan şəxslər yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasına nəzarət etmək məqsədilə meşə sahələrinə və zolaqlara vaxtaşırı baxış keçirməli, yanğın baş verən zaman yanğınsöndürmə xidmətinin hadisə yerinə çağırılması üçün tədbirlər görməli, yanğının söndürülməsi üçün mövcud vəsaitləri təşkil etməlidirlər.

Meşə yanğınlarında bəhs edərkən xüsusilə vurğulanmalıdır ki, bu sahədə baş verən 10 yanğından 9-u odla ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozması səbəbindən baş verir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, isinmək, xörək bişirmək üçün qalanmış tonqallar və meşəni tərk edərkən bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması meşə yanğınlarına səbəb olur. Söndürülməmiş kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən çıxan qığılcımlar da yanğın törədir.

Meşədə yanğınlara yol verilməməsi üçün yanğın təhlükəsizliyi istiqamətində bir sıra qaydalara əməl olunması zəruridir. Meşələrə sürtkü yağı, benzin, ağ neft, dizel yanacağı və digər yanar mayelərə bulaşmış əski və digər materialları atmaq olmaz. Meşələrdə avtomobil, traktor və digər daxiliyanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında siqaret çəkilməsi, tonqal yandırılması yanğın təhlükəli olduğundan yolverilməzdir. Meşələrdə yanacaq və sürtkü yağlarının açıq şəkildə saxlanılması da yanğıntəhlükəlidir. Yanğın təhlükəsindən uzaq olmaq üçün meşədə emal edilmiş hazır meşə materialları açıq sahədə müəyyən olunmuş qaydada yığılıb saxlanılmalıdır. Turist, istirahət zonaları, Gənclər və Uşaq Təşkilatları tərəfindən dövlət meşə fondu torpağında keçirilən kütləvi tədbirlər zamanı tonqallar yalnız meşə mühafizə və bərpası müəssisəsinin icazəsi ilə bu təşkilatın ayırdığı xüsusi yerlərdə qalana bilər.

Yanğın təhlükəsi olan meşə sahələri, meşə yolları və digər torpaqlarla həmsərhəd olan sahələr yanğın əleyhinə 2-3 metr enində şumlanmalı, meşənin tör-töküntülərindən təmizlənməsi təmin edilməli, meşənin ərazisində yerləşdirilən hər hansı tikilinin ətrafı 15 metr radiusunda şumlanmalı və ya yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir. Meşələrin yanğın təhlükəsizliyini təmin etmək məqsədi ilə əhatəli təbliğat işi aparılmaslı, yanğına qarşı plokatlardan, reklam işlərindən geniş istifadə olunmalıdır.

Meşə yanğınları zamanı birinci növbədə insanlar və kənd təsərrüfatı heyvanları təhlükəli zonadan çıxarılmalı, yanğın yerinə giriş məhdudlaşdırılmalı, yanğının söndürülməsində təhlükəsizlik təmin edilməlidir. Yanğın ərazisində işləyənlər xüsusi geyimlər, tüstü əleyhinə maskalar və əleyhqazlardan istifadə etməlidirlər. Yanğın ərazisindən keçmə zərurəti yarandıqda tənəffüs yollarının zədələnməməsi üçün nəfəsi tutmaq lazımdır.

***Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsi***

# Mənim Türkiyə xatirələrim



Biz bir millət, iki dövlətik. Bu dəyərli kəlamı deyənlər heç də səhv etməmişlər. Mən bu günlər Türkiyədə olarkən bunun şahidi oldum.

Avqustun 23-dən 25-dək Türkiyənin Rizə şəhərində Qaradəniz və Xəzər dəniz ölkələrinin karateçilərinin növbəti çempionatı keçirildi. Hakim kimi mən də bu yarışda iştirak etdim. Yarışdan əvvəl böyük idman zalında təşkil olunmuş təntənəli yığıncaqda vətən uğrunda döyüşlərdə qəhrəmancasına həlak olmuş bütün türk və Azərbaycan şəhidlərinin ruhu bir dəqiqəlik sükutla yad edildi. Sonra Türkiyə Karate Federasiyasının Prezidenti yarış iştirakçılarını salamladı və yarışa start verildi.

Yarışda 10 ölkədən 57 regionu təmsil edən 1506 idmançı iştirak edirdi. Ənənəvi yarışda 162 idmançı ilə yarışa qatılan Azərbaycan karateçiləri öz güclərini nümayiş etdirdi və idmançılarımız 16 qızıl, 14 gümüş və 17 bürünc medalla yarışı başa vurdular. Ümumilikdə yerli idmançılardan sonra karateçilərimiz yarışın 2-ci pilləsini tutdular.

Mən özüm bir neçə döyüşə hakimlik etdim. Hər dəfə döşək üstünə çıxanda böyük qürur hissi keçirirdim. Çünki mən doğma Azərbaycanımızı, gündən-günə abadlaşan Ağstafamızı təmsil edirdim. Həmin günləri heç vaxt unutmayacağam. Türkiyə xatirələrim mənim həyatımın ən yaddaqalan səhifələrindən biri olacaqdır.

***Namiq Həsənov,***
***Uşaq Gənclər İdman məktəbinin məşqçi***

## Etibarsız sayılır

"N" saylı hərbi hissənin hərbi qulluqçusu Hümbətov Tural Tofiq oğlunun adına verilmiş SX № 0182558 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

* * *

Kolayır kənd sakini Kərimova Şəfiqə Əli qızının adına verilmiş 207 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Düzqışlaq kənd sakini Əmirova Kristina Nikolayevnanın adına olan JN-48 F nömrəli Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Düzqışlaq kənd sakini İsmayılov İlyas Alı oğlunun adına verilmiş JN-269 nömrəli Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Dağ Kəsəmən kənd sakinin Məşədiəhmədov Məhər Paşa oğlunun adına olan Torpağa Mülkiyyət Hüququna dair JN-1123 nömrəlm Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Düzqışlaq kənd sakinin Orucov Mahmud Həjəm oğlunun adına olan Torpağa Mülkiyyət Hüququna dair JN-249 nömrəlm Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Düzqışlaq kənd sakini Orucova Samaya İsmayıl qızının adına olan Torpağa Mülkiyyət Hüququna dair JN-250 nömrəlm Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

"Ağstafa" qəzetinin əməkdaşları iş yoldaşları Eliza Nabıyevaya anası

**Səfa Nağıyevanın**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, ona dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR:
İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*
*Şəadətnamə № 308*

*Redaksiya heyəti*
*L.Eyyubova, L.İsayeva, K.Abbasov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*